

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 46 (23.458)

6 mart 2020-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovu Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.

Dövlətimizin başçısı Neftçala və İsmayıllı rayonlarına yeni təyin olunmuş icra başçılarının bu etimadı doğruldacaqlarını və buna nail olmaq üçün, sadəcə, tapşırıqları yerinə yetirməyin lazım olduğunu bildirib.

* * *

Prezident İlham Əliyev martın 5-də Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvilini qəbul edib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə inkişafından məmnunluq ifadə olunub, ölkələrimizin birgə iştirak etdiyi mühüm enerji layihələrinin əhəmiyyəti vurğulanıb, Cənub Qaz Dəhlizinin uğurla reallaşmasının önəmi qeyd edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 5 mart tarixli sərəncamları ilə Azərbaycan Respublikasının ictimai həyatında, mədəniyyət, təhsil və səhiyyə sahələrində səmərəli fəaliyyətlərinə görə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının ictimai həyatında, təhsil və mədəniyyət sahələrində fərqlənən qadınlar da vardır.

**Hüseynquliyeva Nazlı Hüseynqulu qızı**

“Əməkdar artist” fəxri adı ilə,

**Məmmədova Nüşabə Məmmədəli qızı**

“Əməkdar müəllim” fəxri adı ilə,

**Quluyeva Rahidə Əsgər qızı**

“Tərəqqi”medalı ilə təltif edilmişlər.

# Naxçıvanda idman festivalı keçirilib




*Naxçıvan şəhərindəki “Saat meydanı” turistik istirahət mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş “İdman festivalı” keçirilib.*

Festival iştirakçıları ulu öndərimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, Heydər Əliyev Muzeyi ilə tanış olub, xatirə şəkli çəkdiriblər.

Festival başlanmazdan əvvəl “Saat meydanı” turistik istirahət mərkəzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyalarının veteran məşqçi-müəllimləri təşkilatçılar tərəfindən qiymətli hədiyyələrlə təltif olunublar. Hədiyyələri Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, komitənin baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, Gənclər və İdman naziri Azad Cabbarov, Güləş Federasiyasının sədri Azər Zeynalov və Karate-do Federasiyasının sədri Fazil Ələkbərov təqdim ediblər.

Festivalda muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının üzv və idmançıları, idman mütəxəssisləri iştirak ediblər. Həmçinin tədbirdə federasiyaların, Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Uşaq-gənclər idman məktəblərinin, Naxçıvan Dövlət Universitetinin idman klubu və idman fakültəsinin, Şərur Rayon Ağır Atletika Bölməsi və “Xatun” Bədii Gimnastika İdman Klubunun nailiyyətləri nümayiş etdirilib. Eyni zamanda federasiyaların idmançılarının hazırladıqları nümunəvi çıxışlar və stendlər də qonaqlar tərəfindən maraqla izlənilib. Qonaqlar, həmçinin Naxçıvanın istedadlı idmançıları ilə söhbət edib, onların fikirlərini dinləyiblər.

Sonra festivalın rəsmi hissəsi başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, muxtar respublikada idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yaradılan şərait gənclərin idmana olan marağını artırıb, istedadlı idmançıların yetişməsi təmin olunub. Muxtar respublikada 2 olimpiya idman kompleksi, 2 üzgüçülük mərkəzi, şahmat mərkəzi, atıcılıq mərkəzi, rayon mərkəzlərində şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, stadion və süni örtüklü mini-futbol meydançaları, tam orta məktəblərdə müasir idman zalları, olimpiya ağırlıqqaldırma qurğuları və sədətipli idman avadanlıqları mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi də bu sahədə görülən işlərin əhatə dairəsini xeyli genişləndirib. Dövlət Proqramına uyğun olaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının birgə təşkilatçılığı ilə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr edilmiş “İdman festivalı” təşkil olunub.




5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə bütün idman ictimaiyyətini təbrik edən Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov çıxışında vurğulayıb ki, bu il festivalın məhz Naxçıvanda keçirilməsi təsadüfi deyil. Azərbaycan idmanının böyük himayədarı ümummilli liderimiz Heydər Əliyev 90-cı illərdə ölkəmizin çətin günlərində xalqın tələbi ilə Naxçıvandan Bakıya gələrək respublikamızda siyasi sabitliyi təmin edib. İdmana xüsusi qayğını 1995-ci ildə idmançı və məşqçilərlə görüşdə öz üzərinə götürən ulu öndərimiz gözəl ənənənin əsasını qoyub. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev də məhz həmin ənənəni uğurla davam etdirir.

Azad Rəhimov qeyd edib ki, Azərbaycan idmanının ilbəil inkişafı hər birimizi sevindirir. Ulu öndərimizin idman ictimaiyyəti nümayəndələri ilə ilk görüşündən keçən 25 il ərzində Azərbaycan idmançıları Avropa və dünya çempionatlarında, kubok yarışlarında, nüfuzlu beynəlxalq yarışlarda 11 min 346 medal qazanıblar. Bunlardan 4081-i qızıl, 3254-ü gümüş və 4008-i bürünc olub. Bu müddət ərzində Azərbaycan 6 yay olimpiya oyunlarında təmsil olunub. Bu oyunlarda 7 idmançımız olimpiya çempionu adını qazanıb. 34 idmançımız isə olimpiya oyunlarının gümüş və bürünc medallarına layiq görülüb.

Sonra Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Hikmət Hüseynov, Nazim Əliyev, Hüseyn Əliyev “Azərbaycan Respublikasının Fəxri bədən tərbiyəsi və idman işçisi”, Azər Qənbərov “Azərbaycan Respublikasının Əməkdar məşqçisi”, Əmrah Nağıyev, Humay Cəfərova “Azərbaycan Respublikasının İdman ustası” fəxri adları, Rasim İsgəndərov, Elvin Əliquliyev və Nizami Bağırov isə “Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin fəxri diplomu” ilə təltif olunublar.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə tədbirdə çıxış edərək Azərbaycanda idmanın inkişafının getdikcə geniş vüsət aldığını, yeni-yeni uğurların əldə olunduğunu bildirib. Vitse-prezident qeyd edib ki, müstəqilliyin bərpasından sonra Azərbaycan idmançıları müxtəlif səviyyəli beynəlxalq yarışlarda minlərlə medal qazanıblar. Son illər Azərbaycan mötəbər idman tədbirlərinə uğurla ev sahibliyi edir. Bu, Azərbaycanda uğurla reallaşdırılan dövlət idman siyasətinin sayəsində mümkün olub. Beynəlxalq tədbirlərin Azərbaycanda yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait var. Bütün bu uğurlar və Azərbaycanda keçirilən tədbirlər ölkəmizdə idmanın kütləviliyinin artmasına, gəncliyin sağlam ruhda yetişməsinə kömək edir.

Tədbirin bədii hissəsində “Naxçıvan idmanının tarixi” mövzusunda film nümayiş etdirilib. Naxçıvan Dövlət Filarmoniyasının, Bakı şəhərindən dəvət olunan müğənnilərin və Azərbaycan Respublikasının Xalq artisti Aygün Kazımovanın ifalarında rəngarəng musiqilər tamaşaçılarda xoş ovqat yaradıb.





**“Şərq qapısı”**

# Şura iclası keçirilib



***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatında keçirilən şura iclasında 2020-ci il fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən növbədənkənar seçkilərin nəticələri müzakirə olunub.***

Məsələ ilə bağlı məruzə edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli bildirib ki, Naxçıvan şəhərində Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbədənkənar seçkilər demokratik və şəffaf şəraitdə keçirilib. Təşkilat seçkilərdə öz işini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun 2020-ci il parlament seçkilərinə hazırlıqla bağlı partiyanın rayon (şəhər) təşkilatları qarşısında mühüm vəzifələr, ölkə və muxtar respublika seçki qanunvericiliyi, eləcə də "9 fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçiriləcək növbədənkənar seçkilərə hazırlıq üzrə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Fəaliyyət Proqramı" əsasında qurub. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsindən partiya tərəfindən irəli sürülmüş namizəd Eldar İbrahimovun seçicilərlə iki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə Naxçıvan şəhərindən irəli sürülmüş 9 namizədin fərdi və kollektiv şəkildə seçicilərlə 3 görüşü keçirilib. Seçicilərin, xüsusən partiya üzvü olan seçicilərin seçkilərdə fəal iştirakının təmin olunması üçün məqsədəmüvafiq iş aparılıb, nəticədə, fevralın 9-da Naxçıvan şəhərində seçici fəallığı 71,9 faiz olub ki, bu da ölkə və muxtar respublika üzrə göstəricidən yuxarı, 1 saylı Şərur-Sədərək Seçki Dairəsindən sonra ikinci göstərici olub. Seçicilərin 84,9 faizi ölkə parlamentinə Yeni Azərbaycan Partiyasından olan namizədə səs verib ki, bu da ölkə üzrə üçüncü göstərici olub. Partiyanın Naxçıvan şəhərinin 9 seçki dairəsindən muxtar respublika Ali Məclisinə irəli sürülən Yeni Azərbaycan Partiyası namizədlərinin hamısı seçkilərdə inamlı qələbə qazanıblar. Seçicilərin 75,5 faizi və ya hər 4 seçicidən 3-ü partiya namizədlərinə səs verib.

Qeyd olunub ki, bütün seçki kampaniyası dövründə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı partiya namizədləri və üzvlərinin seçkilərdə iştirakını ələqələndirib, mütəşəkkilliyin təmin olunmasına çalışıb. Nəticədə, qanundan və partiya prinsiplərindən kənar hərəkətlər müşahidə olunmayıb. Beləliklə, partiya bütün ölkədə və muxtar respublikada olduğu kimi, Naxçıvan şəhərində də əvvəlki nüfuzunu və seçki uğurlarını qoruyub saxlayıb. Bu, Naxçıvan şəhəri əhalisinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş konseptual müstəqil dövlətçilik siyasətinin məhz ölkə başçısı cənab İlham Əliyev, Naxçıvan Muxtar Respublikasında isə Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən davam etdirilməsinə göstərdiyi etimadın nəticəsi kimi qiymətləndirilməlidir.

Sonra məruzə ətrafında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura üzvləri Hacıfəxrəddin Səfərli, Yazgül Rzayeva, Aidə Allahverdiyeva, Ramil Orucəliyev və Ülviyyə Həmzəyeva çıxış ediblər.

**✍ Səbuhi HƏSƏNOV**

# İnkişaf və quruculuq siyasətindən bəhs edən tədbir



***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Böyükdüz Kənd Mərkəzində "Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Yeni Azərbaycan Partiyasının sədri, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən inkişaf və quruculuq xətti" mövzusunda tədbir keçirib.***

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quluyeva çıxış edərək bildirib ki, bu gün dahi liderin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin əzmkar və yaradıcı fəaliyyəti sayəsində Azərbaycan daha böyük inkişafa qovuşub. Dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə reallaşan layihələr nəticəsində Azərbaycan regionun ən güclü ölkəsinə çevrilib.

Sevda Quluyeva bildirib ki, bu gün ulu öndər Heydər Əliyevin əsasını qoyduğu genişmiqyaslı quruculuq tədbirlərinin layiqincə davam etdirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası da özünün yüksək inkişaf dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 1969-cu ildən başlanan quruculuq və inkişaf yolunu özünün əzmkar, yaradıcı və xalqa qayğı üzərində fəaliyyəti ilə yeni inkişaf səviyyəsinə çatdırıb.

Muxtar respublikamızda aparılan quruculuq tədbirləri Kəngərli rayonunun daha da abadlaşması və inkişafına vəsilə olub. Dahi şəxsiyyətin işıqlı ideyalarına söykənərək həyata keçirilən ardıcıl tədbirlər bu rayonun da simasına müasirlik və əzəmət gətirib. Ötən dövrdə rayonun hər bir yaşayış məntəqəsində müasir kənd və xidmət mərkəzləri, səhiyyə, məktəb, mədəniyyət müəssisələri istifadəyə verilib, infrastruktur tamamilə yenilənib. Bir sözlə, Kəngərli gənc bir rayon kimi qısa müddətdə böyük inkişaf yolu keçib. Bölgədə inkişaf və yüksəliş davamlı xarakter alıb. Yaradılan şərait hesabına rayon sakinlərinin əhval-ruhiyyəsi daha da yüksəlib, insanların sabaha olan inamı artıb. Qazanılan uğurlar Heydər Əliyev siyasətinə sadiqliyə, bu ideyaların davamlı gerçəkləşdirilməsi prinsipinə əsaslanır.

Sonra çıxışlar olub.

**Babək İSMAYILOV**

# Tabor, divizion komandirləri və müavinləri ilə təlim toplantısı təşkil olunub

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən zabitlərin nəzəri biliklərinin və bölmələri idarəetmə vərdişlərinin yüksəldilməsi, əməliyyat və qərargah hazırlığı üzrə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən toplantıda gecə şəraitində sürücülük və atəş tapşırıqları yerinə yetirilib.

Müxtəlif qurumların nümayəndələrinin də iştirak etdiyi nəzəri dərslərdə hüquq hazırlığından "Bölmələrdə cinayət hadisələrinin baş verməsinin qarşısının alınması", mənəvi-psixoloji hazırlıqdan "Mili-mənəvi və dini dəyərlərin yad təsirlərdən qorunması", informasiya təhlükəsizliyindən "Qoşunlarda kütləvi informasiya vasitələrinin nümayəndələri ilə qarşılıqlı əlaqə və çəkilişlərin təşkili" və digər mövzularda mühazirələr oxunub.



Toplantının planına əsasən Əlahiddə Ümumqoşun Ordunun Simulyasiya Mərkəzində ikitərəfli kompüter dəstəkli tabor taktiki təlimi keçirilib. Təlimdə müdafiə və hücum əməliyyatları qərargahlar tərəfindən planlaşdırılıb və qəbul edilmiş qərarlar kompüterlər üzərində icra edilib. Toplantıya cəlb edilmiş zabitlərdən müxtəlif ixtisas və fənlər üzrə məqbullar götürülüb.

Üçgünlük təlim toplantısı Təlim-Tədris Mərkəzində keçirilən yekun təd-bir ilə başa çatıb. Toplantıya yekun vurulan zaman zabitlərin ixtisas hazırlığı və tabeliklərində olanların idarəetmə bacarıqları yüksək qiymətləndirilib.

Yekun tədbirdə çıxış edən Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev bildirib ki, hərbi qulluqçuların peşəkarlıqlarının artırılması məqsədilə məşğələ və təlimlər keçirilir. Bütün bunlar da hər zaman əli tətikdə, gözü hədəfdə olan hər bir hərbi qulluqçunun ən çətin döyüş tapşırığını vaxtında və dəqiq yerinə yetirməsində mühüm rol oynayır.

General-leytenant Kərəm Mustafayev bundan sonra da komandir hazırlığı üzrə təlim toplantılarının keçirilməsinin diqqət mərkəzində saxlanılacağını bildirərək tədbirə yekun vurub.

**Nəriman NƏCƏFOV**

# Hərbi hissələrin komplektləşdirilməsi ilə bağlı praktik məşğələ

Dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində hərbi hissələrin komplektləşdirilməsi ilə bağlı praktik məşğələ keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Vətənpərvərlik mövzusunda slaydların nümayiş etdirilməsindən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəis müavini polkovnik-leytenant Sultan Zamanov çıxış edərək bildirib ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin təsdiq etdiyi plana uyğun həyata keçirilir.

Qeyd olunub ki, müharibə dövrünün şərtlərinə uyğun olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı hərbi birləşmələrinin canlı qüvvə və texnika ilə komplektləşdirilməsi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vəzifə borclarından biridir. Bugünkü tədbirin məqsədi də həmin komplektləşmeni praktik məşğələ çərçivəsində həyata keçirməkdən ibarətdir.

Çıxışlardan sonra şəxsi heyətin görəcəyi tədbirlər nəzəri cəhətdən izah olunub və üç istiqamət üzrə – nəzarət qrupu, hərbi vəzifəlilərin əvvəlcədən toplanış məntəqəsi və xəbər sahələri üzrə praktik məşğələ həyata keçirilib.

**Xəbərlər şöbəsi**

# Beynəlxalq Qadınlar Günü qeyd edilib

***"Naxçıvan" Universitetində 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq qadınları bu bayram münasibətilə təbrik edib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyev respublikaya rəhbərliyi dövründə milli maraq və mənafelər çərçivəsində qadınlarla bağlı dövlət siyasətini təmin edib, Azərbaycan qadınının şərəfli adının daim uca tutulmasına çalışıb. Azərbaycan qadınının mərdliyi, dözümlülüyü, səmimiliyi, paklıq və sədaqəti, vəfa və isməti ən ali dəyər kimi həmişə qiymətləndirilib. İctimai gerçəkliyin, əxlaqi problemlərin həllində, ideya mübarizələrində qadınlarımız əzmkarlığı, müasirliyi, biliyi, bacarığı, əqidə saflığı ilə hər zaman ön cərgələrdə dayanıb.

Vurğulanıb ki, dahi rəhbər ölkə həyatının bütün sahələrində qadınların fəaliyyətlərinin təmin olunmasına xüsusi diqqət göstərib. Bu gün həmin siyasətin Prezident cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi isə Azərbaycan qadınlarının məsuliyyətini daha da artırır. Naxçıvan Muxtar Respublikasında da qadınlar dövlət qurumlarında, seçkili və seçkisiz orqanlarda irəliyə çəkilir, onların potensialından geniş istifadə olunur. Qadınlar bir sıra orden və medallarla təltif olunur, fərdi təqaüdlərə, Prezident mükafatlarına və fəxri adlara layiq görülürlər.

Tədbirdə universitetin qadın əməkdaşlarına və fəal tələbə qızlara hədiyyələr verilib. Tələbə-Gənclər Təşkilatının hazırladığı müxtəlif musiqi nömrələri və səhnəciklər iştirakçılara yüksək əhval-ruhiyyə bəxş edib.

**Seyfur HACIMURADOV**

# Teleradiolarda yaradıcılıq və yayım keyfiyyətinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş dövlət proqramları və tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını 2020-ci ilin fevral ayında da diqqətdə saxlamışdır. Teleradionun əməkdaşları fevral ayında baş verən yeniliklərə operativ münasibət göstərməyi bacarmış, fəaliyyətlərini günün tələblərinə uyğun qurmuşlar. Şura muxtar respublikada fəaliyyət göstərən teleradiolarda texniki və yaradıcılıq baxımından keyfiyyətin yüksəldilməsinə xüsusi diqqət göstərməklə yanaşı, həm də teleradioların monitorinqini aparır.

Fevral ayı ərzində Naxçıvan Dövlət Televiziyasında və Radiosunda, "Naxçıvanın səsi" radiosunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən sosial obyektlərdən operativ materiallar hazırlanmışdır. Həmin materialların təhlili monitorinq nəticələrində qeyd olunmuşdur. Naxçıvan Dövlət Televiziyası "Niyə belə deyirik?!", "Əkinçilər", "Kim sevirsə idmanı", "İş başında" yeni telelayihələri ilə tamaşaçıların qarşısına çıxmışdır.

Fevralın 17-də Televiziya və Radio Verilişləri Redaksiyasının yenidən qurulması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə adıçəkilən media qurumu həmin fondun tabeliyinə verilmişdir. Bununla yanaşı, redaksiyanın nəzdindəki "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosunun efir vaxtı 8 saat, yəni hər gün $16^{00}$-dan gecə saat $12^{00}$-dək müəyyənləşdirilmişdir.

Fevralın 19-da AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən muxtar respublikada fəaliyyət göstərən teleradio yayımçılarının ədəbi dil normalarına riayət etməsi sahəsində 2020-ci ildə aparılacaq monitorinqlərin layihəsi müzakirə edilmişdir.

Tədbirlər planına uyğun olaraq şura sosial şəbəkələrdə Naxçıvanla bağlı yayılan məlumatların təhlilini də aparmış, muxtar respublikanın zəngin tarixi-mədəni irsi və müasir inkişafı ilə bağlı video və fotomateriallarin, eyni zamanda xəbərlərin yayılmasında yaxından iştirak etmişdir. Bəhs edilən dövrdə şura tərəfindən sosial şəbəkələrdə Naxçıvanla bağlı 500-dək foto və video, həmçinin xəbər paylaşılmışdır. Fevral ayında şuranın sosial şəbəkələrdə rəsmi səhifələri də fəaliyyətə başlamışdır.

Şura tərəfindən sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində Naxçıvan Muxtar Respublikasında əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu, diyarımızın qədim tarixi abidələri, zəngin turizm potensialı ilə bağlı mərkəzi mətbuat orqanlarında analitik materiallar, fotoreportaj və reportajlar, müsahibə və xəbər olmaqla, ümumilikdə, 174 material yerləşdirilmişdir. Həmçinin Türkiyənin "Yeşil İğdır" qəzeti, eləcə də *igdir15temmuzgazetesi.com* və *serhatbirikim.com.tr* xəbər portallarında şura tərəfindən "Naxçıvanlılara böyük müjdə "Dildə, fikirdə, əməldə birlik" sərlövhəli yazı yerləşdirilmişdir.

2020-ci ilin fevral ayında şura muxtar respublikada yayımlanan telekanalların fəaliyyətini izləmiş, təhlillər apararaq aidiyyəti üzrə məlumat vermişdir. Qeyd edək ki, fevral ayı ərzində Azərbaycan mediasında (AzTV, Mədəniyyət, İTV) muxtar respublikanın yaradılmasının 96-cı ildönümünə geniş yer verilmişdir. Bir sıra televiziya kanallarında qədim diyarın təhlükəsizliyində, ərazi bütövlüyünün qorunması və inkişafında muxtariyyətin oynadığı roldan ətraflı bəhs olunmuş, muxtar respublikanın keçdiyi böyük tarixi inkişaf yolu tamaşaçılara ətraflı şəkildə çatdırılmışdır. Fevral ayında muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında baş verən hadisələrə ölkə telekanallarının "Xəbərlər" proqramlarında da geniş (Lider TV, İTV) yer verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

***Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun təmin edilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu məqsədlə yeni istehsal və xidmət müəssisələri yaradılır, mövcud müəssisələrin fəaliyyəti genişləndirilir, özəl sektorun inkişafına geniş meydan verilir. Həyata keçirilən dövlət proqramlarının uğurlu icrası mühüm nəticələrin əldə edilməsinə gətirib çıxarıb.***

# Məşğulluq strategiyası insan amilinə qayğını özündə əks etdirir

İnsanların maddi rifah halının yüksəlməsinə təminat verən bu tədbirlər, bütövlükdə, Azərbaycanın sosial siyasətinin əsasını təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı”nın təsdiq edilməsi bu sahədəki dövlət siyasətinin davamı kimi qeyd etdiklərimizin əyani sübutudur. Bu istiqamətdə görülən işlər muxtar respublikamızda da davamlı xarakter alıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb. Proqramın icrası nəzərdə tutulan dövr ərzində həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 6364 yeni iş yeri açılıb, əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılıb, müəssisələrdə mövcud olan vakansiyalar üzrə 5537 işaxtaran işlə təmin edilib, 627 nəfər ictimai işlərə göndərilib, 7595 nəfər əmək bazarının tələbinə uyğun olaraq işaxtaranlar üçün təşkil olunan peşə kurslarına cəlb olunub. Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu da diqqətdə saxlanılıb. Belə ki, 158 kvota yerinə sağlamlıq imkanları məhdud 171 şəxs münasib işlərə göndərilib, məhdud fiziki imkanlı 161 nəfər peşə kurslarına cəlb olunub. Yeni iş yerlərinin yaradılması üçün sahibkarlığın inkişafına dövlət dəstəyi davam etdirilib, bu məqsədlə 82 milyon 286 min manat güzəştli şərtlərlə kreditlər verilib. Bütün bunların nəticəsidir ki, qeyd olunan dövrdə əhalinin gəlirləri 3,5 faiz artıb.

Göründüyü kimi, həyata keçirilən məşğulluq strategiyası əhalinin yaşayış səviyyəsinin dəfələrlə artması ilə müşahidə olunaraq insan amilinə qayğını özündə təcəssüm etdirir. Buna görə də bu istiqamətdə işlərin davam etdirilməsi zəruri xarakter daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası bu işlərin sistemli və davamlı xarakter almasına zəmin yaradıb. Hazırda proqramın icrası uğurla davam etdirilir.

Dövlət proqramının icrası ilə bağlı muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üçün mütəmadi təhlillər aparılır, müxtəlif peşə istiqamətləri üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə müəssisələrdə sorğular keçirilir. Bununla yanaşı, kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları, əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kursları təşkil olunur. Nəticəsi isə göz qabağındadır. Təkcə ötən ilin statistikasına nəzər yetirmək kifayət edir. Bu dövrdə 3427 işaxtaran qeydə alınıb, onların 3040-ı müxtəlif sahələrdə işlə təmin olunub. Bundan əlavə, göstərilən müddətdə 402 nəfər peşə hazırlığı kurslarına göndərilib, onların 125-i müxtəlif peşələrə yiyələndikdən sonra işə qəbul edilib. Ümumiyyətlə, son 10 ildə Naxçıvan Muxtar Respublikasında 35 min 791 yeni iş yeri yaradılıb, əməkhaqqı 1,8 dəfə artıb, iqtisadi fəal və məşğul əhalinin sayı hər iki halda 20,2 faiz çoxalıb.

Məşğulluq strategiyasında aztəminatlı ailələrin sosial problemlərinin həlli, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması da əsas məsələlərdən biri kimi diqqətdə saxlanılır.



Bu məqsədlə 2006-cı ildən ötən dövr ərzində aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımı ödənişi həyata keçirilib. Muxtar respublikada yaradılan yeni iş yerləri hesabına aztəminatlı ailələrdə əməkqabiliyyətli ailə üzvlərinin fəal əməyə və özünüməşğulluq proqramına cəlb olunması ehtiyac meyarının davamlı artmasına baxmayaraq, sosial yardım alan əhalinin sayının ilbəil azalmasına səbəb olub.

Bu məqamda özünüməşğulluq layihəsinin tətbiqini də xüsusi vurğulamalıyıq. Bu proqrama əsasən əmək bazarında iş qabiliyyəti olan, lakin özünə iş tapmaqda çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Bu dövlət siyasəti sosial ədalət prinsipinin qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Yenə də, sadəcə, ötən ilin göstəricilərinə diqqət yetirmək kifayətdir: 2019-cu ildə bu istiqamətdə muxtar respublika üzrə, ümumilikdə, 140 ailə müəyyənləşdirilib. Həmin ailələrdən 96-na yanında balası olan iribuynuzlu, 18 ailəyə 10 baş olmaqla, yanıbalalı xırdabuynuzlu heyvan verilib. Bundan başqa, 26 ailə mini-yerşumlayan aqreqat, odunkəsən avadanlığı, yabanı meyvə və giləmeyvələrdən mürəbbə və şirələrin hazırlanması üçün avadanlıqlar, pinəçi ləvazimatları, 10 yeşik arı ailəsi, musiqi, dərzi və dülgər avadanlıqları, inkubator aparatları, bərbər-manikürçü avadanlıqları, şirniyyat hazırlanması üçün ləvazimatlar, tənəkəçi-rəngsaz alətləri, fotoaparat və printer, otbiçən avadanlığı ilə təmin olunub.

Nəticə isə belədir: Özünüməşğulluq proqramı mərhələli şəkildə aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımından asılılığını aradan qaldırır və beləliklə, ailə təsərrüfatları formalaşır. Məsələn, 2019-cu ildə özünüməşğulluq proqramı çərçivəsində müqavilə əsasında istifadəyə verilən aktivlər müddəti bitdiyi üçün 95 ailənin mülkiyyətinə keçirilib. Onu da qeyd etmək lazımdır ki, proqrama cəlb olunan vətəndaşlara





verilən aktivlərdə və təsərrüfatlarda daimi olaraq artım müşahidə olunur. Bu da onların sosial rifah halının yaxşılaşdırılmasına, məşğulluqlarının təmin olunmasına və fəaliyyətlərini inkişaf etdirmələrinə köməklik göstərir. Bir sözlə, dövlət proqramının icrası nəticəsində 2019-cu ildə əvvəlki illə müqayisədə özünüməşğulluq sahələri genişlənib, yeni ailə təsərrüfatları yaranıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikamızda “Ailə təsərrüfatları ili” elan olunması bu sahənin yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaradıb. Ardınca Ali Məclis Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamında verilmiş tapşırıqların icrasının davamlılığını təmin etmək məqsədilə 2019-cu il 18 yanvar tarixli Sərəncamla təsdiqlənən “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın uğurlu icrası nəticəsində, ötən il muxtar respublikada qeydə alınmış ailə təsərrüfatlarının sayı 44 mini ötüb.

Öz fəaliyyətlərini genişləndirən ailə təsərrüfatları isə müəyyən zaman keçdikdən sonra kiçik və ya orta sahibkarlıq subyektinə çevrilirlər. Nəticə olaraq həm Naxçıvan brendi altında məhsul istehsalında çeşid, məhsul bolluğu yaranır, həm də əhalinin həyat səviyyəsi yüksəlir, işsizlik problemi aradan qalxır. Bir sözlə, insan amilinə göstərilən bu qayğı Naxçıvanda sosial-iqtisadi inkişafın artan tempini təmin edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətlərinin dəstəklənməsinin uğurlu nəticələrin qazanılmasına və əhalinin məşğulluğunun təmin olunmasına, ən əsası isə istehsal olunan məhsulların keyfiyyətinin və çeşidinin artırılmasına səbəb olduğunu nəzərə alaraq fevralın 24-də keçirilən altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qarşıdakı dövrdə də ailə təsərrüfatlarının fəaliyyətinə mühüm əhəmiyyət verilməsini, istehsal olunan məhsulların satışına və ixracına köməklik göstərilməsinin davam etdirilməsini tapşırıb.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq hərbi xidmətdən tərxis edilmiş şəxslərin də məşğulluqlarının təmin olunması diqqət mərkəzində saxlanılır. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə təşkilatçılığı ilə ordudan tərxis olunan gənclərlə mütəmadi görüşlər keçirilir, onlar vakant iş yerləri ilə tanış edilir, maraqlarına uyğun müvafiq peşə və ixtisaslara yiyələnmək üçün peşə hazırlığı kurslarına cəlb olunurlar. Başqa sözlə, hərbi xidmətini başa vurmuş gənclər bu vasitə ilə əmək bazarına inteqrasiya olunaraq qısa müddətdə öz məşğulluğunu təmin etmiş olurlar.

Qadınların cəmiyyətin bütün sahələrində təmsil olunması ölkəmizdə həyata keçirilən dövlət qadın siyasətinin uğurlu nəticəsidir. Həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublikada iqtisadiyyatın bütün sahələrində qadınların fəallığının artırılmasına hərtərəfli şərait yaradılıb. Təsadüfi deyil ki, bu gün muxtar respublikada fəal əməklə məşğul olan və iqtisadiyyatın müxtəlif sahələrində işləyən əhalinin mühüm bir hissəsini də qadınlar təşkil edir.

Qadınlarımız, bu gün sahibkar kimi də öz sözlərini deyirlər. Son məlumatlara görə, muxtar respublikada 6 min 667 qadın sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Bununla yanaşı, ailə təsərrüfatları kimi dövlət qeydiyyatına alınan 940 təsərrüfatdan 67-si qadınlar tərəfindən idarə olunur. Muxtar respublikada qadın sahibkarlığının inkişafı ilə əlaqədar həyata keçirilən genişmiqyaslı tədbirlərin davamı olaraq ötən il “Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi” layihəsi icra olunub. Naxçıvan Muxtar Respublikasının bütün rayon və şəhərlərində icra olunan layihədə biznes qurmaq istəyən xanımlara maliyyə və metodik dəstək göstərilib. Qrant layihənin sonunda 63 qadına 43 min 700 manat məbləğində sərmayə kapitalı verilib. Bunun 80 faizi qadınlara ailə təsərrüfatlarını genişləndirmək və ya qurmaq, 20 faizi isə toxuculuq, dərzilik, bərbərlik peşələri ilə məşğul olmaları və ya bu sahələri inkişaf etdirmələri üçün verilib.

Naxçıvanda əhalinin digər kateqoriyalarından olan hissəsi ilə yanaşı, sağlamlıq imkanları məhdud şəxslərin də məşğulluğu diqqət mərkəzində saxlanılır. Bütün bunlar məhdud fiziki imkanlı şəxslərin cəmiyyətə daha intensiv inteqrasiyasına zəmin yaradır, onların yaşamaq və əməyə olan həvəsini artırır. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin güclənməsinə əsaslı zəmin yaradır. Ötən il əmək bazarının tələblərinə uyğun təşkil olunan müvafiq peşə kurslarına sağlamlıq imkanları məhdud 13 nəfər cəlb edilib, bu kateqoriyadan 9 şəxs münasib işlə təmin olunub. Sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluqlarının təmin edilməsi məqsədilə 32 nəfər sosial xarakterli haqqödənilən ictimai işlərə cəlb edilib. Qadınların əl işlərindən ibarət hər il keçirilən sərgilərdə bu kateqoriyadan olan şəxslərin də iştirak etməsi məşğulluq strategiyası sahəsində əldə edilən uğurlardandır.

Bu il fevralın 24-də keçirilən altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışına bir daha nəzər salaq: ***“Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğunun təmin olunması sahəsində işlər davam etdirilməli, peşə hazırlığı əmək bazarının tələblərinə uyğunlaşdırılmalıdır”.***

*Hər bir cəmiyyətin inkişafı onun insanlarının maddi rifah halının mövcud vəziyyəti ilə paralellik təşkil edir. Dövləti irəli aparan onun vətəndaşlarıdır. Orada ki insan amili yüksək pillədə qərarlaşıb, vətəndaşlara layiqli diqqət və qayğı göstərilir, o yer dünya xalqları içərisində yüksək və dayanıqlı inkişafı ilə diqqət çəkəcəkdir. Bunun bariz nümunəsi blokada mənqənəsində belə, dayanıqlı inkişafı ilə öz sözünü deyən Naxçıvan Muxtar Respublikasıdır. Digər sahələrlə yanaşı, məşğulluq problemlərinin həllinə yönəldilmiş tədbirlərin genişmiqyaslı və davamlı xarakter alması gələcəkdə daha böyük nailiyyətlərə əminlik yaradır.*

**Gülcamal TAHİROVA**

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

# Maliyyə savadlılığı üzrə *“Gələcəyini planlaşdır”* adlı növbəti təlim



*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə maliyyə savadlılığı ilə bağlı “Gələcəyini planlaşdır” adlı təlim keçirilib. Təlim 4-5 mart tarixlərində komitənin iclas zalında təşkil edilib.*

Tədbiri giriş sözü ilə komitənin sədr müavini Aytən Məmmədova açaraq bildirib ki, muxtar respublikada yaradılan şərait qadınların ictmai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açır. Naxçıvan qadınları yaradılmış bütün imkanlardan istifadə edərək təhsil alır, peşə səviyyəsini artırır, ictimai-siyasi, mədəni proseslərdə iştirak edir, dövlət qurumlarında fəaliyyət göstərir, sahibkarlıq sahəsində geniş təmsil olunurlar. Keçirilən təlim də qadınların gələcəkdə sahibkarlıq fəaliyyətlərinə dəstək göstərilməsi məqsədi daşıyır. Aytən Məmmədova çıxışının sonunda təlim iştirakçılarına uğurlar arzulayıb.

Tədbirin mahiyyəti və aktuallığı barədə Maliyyə Tədris Mərkəzinin direktoru Sevinc Cabbarova geniş məlumat verərək bu təlimin iştirakçılar üçün mühüm əhəmiyyətindən bəhs edib.

Təlim gündəliyinə uyğun olaraq Maliyyə Nazirliyinin əməkdaşları Pərvin Cümşüdova, Zəhra İsmayılova və Hüseyn Əliyev tərəfindən “Pulların hərəkəti, gəlir və xərclərin təhlili və mövsümlülüyün idarə edilməsi” və “Həyatda baş verən hadisələr, maliyyə hədəfləri və planlaşdırmanın faydası”,“Yığım metodları və bacarıqları”, “Təcili hadisələr üçün xərclər və ehtiyat fondu”, “Əmanət alətləri” və “Ağıllı borcalma” mövzularında slaydlar vasitəsilə ətraflı məlumat verilib və iştirakçıların təqdimatları dinlənilib.

Qeyd edək ki, təlimin sonunda 30 nəfərə sertifikat təqdim olunub.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Muxtar respublikada ilk dəfə təşkil olunan festival qonaqların gözü ilə



***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Naxçıvan Muxtar Respublikasının İdman federasiyalarının təşkilatçılığı ilə Naxçıvan şəhərində yerləşən “Saat meydanı” turistik istirahət mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş “İdman festivalı” keçirilib. Festivalda ölkəmizin tanınmış idmançıları, idman mütəxəssisləri, məşqçi-müəllimlər və rəsmi şəxslərin fikirlərini öyrəndik.***



*Səmayə Məmmədova – Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri:* – Bildiyimiz kimi, 25 il bundan öncə, 1995-ci ildə Bakı İdman Sarayında ümummilli lider Heydər Əliyevin olimpiya, dünya çempionları, idman ictimaiyyəti ilə görüşü olub. Məhz həmin dövrdən başlayaraq Azərbaycanda vahid idman strategiyası müəyyən edilib, idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilib. Ölkə Prezidentinin 2005-ci ildə imzaladığı müvafiq sərəncam ilə hər il martın 5-i ölkəmizdə “Bədən Tərbiyəsi və İdman Günü” kimi qeyd olunur, bununla əlaqədar ölkəmizin hər yerində müxtəlif idman yarışları keçirilir. Artıq idman festivalının təşkili də ənənə halını alıb. Ulu öndər Heydər Əliyevin 25 il öncə atdığı mütərəqqi addıma həsr olunmuş budəfəki idman bayramının ölkənin idman siyasətinin əsasını qoyan dahi şəxsiyyətin dünyaya göz açdığı Naxçıvanda keçirilməsi heç də təsadüfi deyil. Muxtar respublikanın son illərdə beynəlxalq yarışlara ev sahibliyi edən bir məkan kimi də diqqəti çəkməsi seçim prosesində həlledici məqam oldu. Festivalın Saat meydanı kimi belə gözəl məkanda və yüksək səviyyədə təşkili Bakıdan buraya üz tutan idman ictimaiyyətini hədsiz dərəcədə sevindirdi. Bu idman bayramının mühüm xüsusiyyətlərindən biri də ölkənin yüksək titullu idmançılarını, idman ictimaiyyətinin bir araya gələrək gələcəyə, inkişafa yönələn maraqlı dialoqlar qurmasıdır ki, bu da, son nəticədə, bu sahədə yüksəlişə xidmət edir. Biz burada olduğumuz müddətdə muxtar respublikada fəaliyyət göstərən ayrı-ayrı federasiyaların hazırladığı nömrələrə tamaşa etdik, güclü-qüvvətli idmançıların məşq prosesini seyr etdikcə, həqiqətən, könlümüz açıldı. Festival çərçivəsində buradakı idman veteranları ilə də görüş oldu ki, bu da idmanımızın dününə verilən böyük dəyərdir. Ümumilikdə, onu deyə bilərəm ki, idman festivalı yüksək səviyyədə, rəngarəng formada keçdi, burada iştirak etməyimə çox şad oldum.



*Nizami Paşayev – ağır atletika üzrə dünya və Avropa çempionu:* – Bu gün çox əlamətdar bir gündür. Bayramımızı dahilər, sərkərdələr yurdu Naxçıvanda qeyd etməyimiz bizim üçün ikiqat xoş əhval-ruhiyyə yaratdı. Onu da deyim ki, bu mənim Naxçıvana ilk gəlişim deyil, əvvəllər burada bir neçə dəfə təlim-məşq toplanışlarında iştirak etmişəm. Bir idmançının hərtərəfli yetişməsi üçün qədim diyarın əlverişli müsbət xüsusiyyətləri çoxdur. İnsanı daim gümrah saxlayan gözəl havası, təbiəti var, peşəkar formada yetişmək üçün idman infrastrukturu da yüksək səviyyədədir. Son illər Naxçıvan idmançılarının beynəlxalq arenalarda özlərini yaxşı tərəfdən göstərmələri də aparılan uğurlu idman siyasətinin nəticəsidir. Burada ağır atletika üzrə artıq yeniyetmələr arasında olimpiya mükafatçısının, Avropa birinciliyinin qalibinin olmasını nümunə kimi göstərmək olar. Sevinirəm ki, bugünkü festival sayəsində naxçıvanlı idmançılarla bir daha görüşə bildim. Fürsətdən istifadə edib bütün idmançıları, idman ictimaiyyətini əlamətdar gün münasibətilə təbrik edir, onlara yeni-yeni uğurlar arzulayıram.



*Fərid Mansurov – Olimpiya çempionu:* – Ənənə halını alan idman festivalı bu dəfə ölkəmizin qədim diyarı olan Naxçıvanda təqdirəlayiq şəkildə təşkil olunmuşdu. Festivalda Azərbaycanın tanınmış idmançıları, məşqçilər, olimpiya, dünya çempionları və idman veteranları iştirak etdilər. Demək istərdim ki, Naxçıvandakı idman festivalı əsl bayram əhval-ruhiyyəsi ilə keçdi. Ayrı-ayrı federasiyaların yetirmələrinin nümayiş etdirdikləri nömrələrə baxdıq, ardınca da gözəl konsert proqramı oldu. Ümumilikdə, festival bənzərsiz çalarları ilə yadda qaldı. Düşünürəm ki,



belə tədbirlərin keçirilməsi yeniyetmə və gənclərimizin idmana olan həvəsini daha da artıracaq. Ümidvaram ki, naxçıvanlı idmançılar gələcəkdə daha da uğurlu nəticələr əldə edəcəklər.



*Ağasəlim Mircavadov – veteran futbolçu, məşqçi:* – Bu gün idman sahəsində fərqlənən, uğurlara imza atan və əldə olunan qələbələrə sevinən hər bir azərbaycanlının, ən əsası milli idmanımızın bayramıdır. Mən çox şadam ki, Naxçıvanda təşkil olunan möhtəşəm idman festivalında iştirak edirəm. Əsası ümummilli lider tərəfindən qoyulan idman siyasətinin bu gün muxtar respublikada da uğurla davam etdirildiyinin şahidiyik. Burada idmana böyük diqqət və qayğı var. Mən Naxçıvana idman tədbirləri üçün tez-tez gəlirəm. Əminliklə qeyd edə bilərəm ki, hər il idman sahəsi daha da inkişaf edir, yeni-yeni nailiyyətlər əldə olunur. Yetirmələrimdən olan Əsgər Abdullayevin adını çəkmək istəyirəm. Bildiyiniz kimi, futbolda əsas iş məşqçinin üzərinə düşür. Əsgər Abdullayev Naxçıvanda yeni inkişaf etməkdə olan futbolun kütləviliyinə xidmət edir. İnanıram ki, muxtar respublika futbolçuları onlara göstərilən bu etimadı doğruldacaq və dünya səviyyəli peşəkar futbolçu kimi yetişəcəklər. Bu gün burada təşkil olunan möhtəşəm tədbir də sadaladıqlarımın əyani göstəricisidir. Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə bütün azərbaycanlıları, həmkarlarımın bayramını təbrik edir, daha böyük zəfərlər, nailiyyətlər arzu edirəm.





*Şəfəq Kərimova – veteran voleybolçu, Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətinin rəhbəri:* – 5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə bağlı qədim diyarımızda keçirilən idman festivalında iştirak etdiyim üçün çox şadam. Biz bu gün əvvəlcə Heydər Əliyev Muzeyində olduq. Orada dahi siyasətçinin keçdiyi ömür yoluna bir daha nəzər saldıq. Bildiyiniz kimi, bu günün qeyd olunması da ulu öndərin adı ilə bağlıdır. Azərbaycanda ənənə halını alan idman festivalı hər il möhtəşəm formada keçirilir. Naxçıvandakı festival da çox yüksək səviyyədə təşkil olunub. Tədbirin iştirakçıları da əsl bayram əhvalı ilə öz hünərlərini göstərirlər. Festivalın təşkilində əməyi olanlara minnətdarlığımı bildirirəm.



*Rəşad Əhmədov – taekvando üzrə dünya çempionu, taekvando üzrə yığma komandanın böyük məşqçisi:* – Belə bir möhtəşəm tədbirdə iştirak etmək qürurvericidir. Bu gün burada Azərbaycan idmanını beynəlxalq arenalarda layiqincə təmsil edən idmançılar iştirak edirlər. Hər biri öz idman növündə, demək olar ki, ölkənin ən istedadlısıdır. Festivalın Naxçıvanda keçirilməsi həm də əlamətdar bir hadisədir. Çünki bir çox idmançımız məhz burada idmanın sirlərini öyrənib. Muxtar respublikada ilk dəfə təşkil olunan festival öz gözəlliyi, cəlbediciliyi ilə bütün idmançıların yaddaşında dərin iz buraxacaq. Keçmiş idmançı kimi öz peşəsini sevən, bu sahədə Azərbaycanın bayrağını dünya arenalarında dalğalandıran bütün idmançıların, məşqçilərin, idman ictimaiyyətinin bayramını təbrik edirəm.

Festival iştirakçılarının təəssüratlarından da göründüyü kimi ölkəmizin idman ictimaiyyəti öz əlamətdar peşə bayramlarını ikiqat sevinclə qeyd etdi. Buna səbəb isə əsası



ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan idman və gənclər siyasətinin muxtar respublikada uğurlu və yaradıcı şəkildə davamını sərgiləyən əsl idman bayramı – idman festivalı oldu. Bu festival doğma diyarımızın idman potensialını hərtərəfli sərgiləməsi, bu qədim diyarda idmanın inkişafına dövlət qayğısı göstərilməsini təsdiqləməklə yaddaşlarda qalacaq.

**✍ Ceyhun MƏMMƏDOV**
**✍ Nail ƏSGƏROV**
**✍ Pərviz HACILI**

## Koronavirus infeksiyasına qarşı qabaqlayıcı tədbirlər davam etdirilir

***Muxtar respublika ərazisində koronavirus infeksiyasına qarşı zəruri qabaqlayıcı profilaktik tədbirlər davam etdirilir.***

Ümumtəhsil və peşə məktəblərində tədris prosesi mart ayının 4-dən 9-dək dayandırıldığından təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər gücləndirilib. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatları hazırda bütün təhsil müəssisələrində sanitar-gigiyenik vəziyyəti nəzarətdə saxlayırlar.

Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin həkim-epidemioloqu, epidemioloq köməkçiləri, dezinfektor təlimatçıları mövsümi virusların yayılma ehtimalına qarşı şəhər orta məktəblərində dezinfeksiya işləri aparırlar. Bu tədbir



uşaq bağçalarında, musiqi məktəblərində, kolleclərdə, ali təhsil müəssisələrində də həyata keçirilir.

Martın 10-dək Naxçıvan Regional Peşə Tədris Mərkəzi, lisey və kolleclər, uşaq bağçaları, musiqi və idman məktəbləri, ali təhsil müəssisələri, avtobus və dəmiryol vağzalları, hava limanı, şəhər məscidləri və mərasim zalları, muzey və kitabxanalar da dezinfeksiya tədbirləri ilə əhatə olunacaqdır.

Qeyd edək ki, məktəb həkimləri tərəfindən mövsümi respirator xəstəlik əlamətləri müşahidə olunan şagirdlər ərazi üzrə poliklinikalara yönləndirilir. Eləcə də tibb otaqlarının zəruri tibbi vasitələr ilə təchiz olunmasına nəzarət artırılıb.

Tibb müəssisələrində sanitari-ya-gigiyena, əks-epidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və keçirilməsi işinin gücləndirilməsi, kəskin respirator virus infeksiyasına şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılması və təchiz olunmasının təmin edilməsi üçün müvafiq tədbirlər görülüb.

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun şəhər və rayon təşkilatları tərəfindən əhalinin sıx məskunlaşdığı yerlərdə profilaktik tədbirlər mütəmadi olaraq həyata keçirilir.

Xəstəlik hallarının ölkəyə gətirilməsinin qarşısının alınması məqsədilə hava limanının tibbi heyəti tərəfindən muxtar respublikaya gələnlər arasında xəstəliyə şübhəli bilinən şəxslərdə müayinə və termometriya müşahidəsi təşkil edilib. Xəstəlik müşahidə edilərsə, onların hospitalizasiyası, karantinə alınması və stasionar müalicəyə götürülməsinə şərait yaradılıb. Gömrük-keçid məntəqələrinə yaxın olan səhiyyə müəssisələrində izolyatorlar ayrılıb. Tibb personalının fərdi mühafizə vasitələrindən (maskalardan) istifadə etməsi təmin olunub, dərman preparatlarının, dezinfeksiyaedici maddələrin, həmçinin tibb personalı üçün fərdi mühafizə vasitələrinin ehtiyatı yaradılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Düdəngə kənd sakini Vəliyeva Amilə Fərman qızının adına verilmiş 102013002827-10301 reyestr nömrəli texniki pasport və MH-0035967 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, “Azərbaycan” küçəsi, döngə 6, ev 32 ünvanında yaşayan Qasımova Tahirə Adil qızının adına olan 1501 inventar nömrəli texniki pasport və MH-0053224 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov Səməddin Fərman oğlunun adına olan 0200348382 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Şahüseyn Yamən oğlunun adına olan 0200397502 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 230